**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# BAKI SLAVYAN UNİVERSİTETİNİN
# 2024-2030-cu illər üzrə
# ELMİ-TƏDQİQAT STRATEGİYASI

**BAKI-2023**

## 1. Ümumi müddəalar

**1.1.** Elmi-tədqiqat fəaliyyəti Bakı Slavyan Universitetinin (bundan sonra "BSU") inkişafının prioritet istiqamətlərindən biridir və fundamental tədqiqatlar əsasında təlim-tədris və tərbiyə prosesinin fasiləsiz təkmilləşdirilməsini təmin edir.

**1.2.** "Bakı Slavyan Universitetinin 2024-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası" (bundan sonra "Strategiya") Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına, elmi-tədqiqat sahəsində mövcud olan qanunvericiliyə, dövlət proqramlarına, Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin əmrlərinə, beynəlxalq təşkilatların və xarici universitetlərin təcrübəsinə, BSU-nun 2023-2030-cu illər üzrə İnkaşaf Strategiyasına uyğun hazırlanmışdır.

**1.3.** Strategiya elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin yayılması, təbliği, tədris prosesinə inteqrasiyası və tədqiqatçılıq sahəsində bacarıq və vərdişlərin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini əks etdirir.

**1.4.** Strategiya BSU-nun bütün müvafiq struktur bölmələrinin iştirakını nəzərdə tutaraq həyata keçirilir.

**1.5.** Strategiya elmi-tədqiqatların səmərəliliyinin artırılması, BSU-nun elmi məktəblərin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə yanaşı yeni elmi məktəblərin formalaşdırılması, Universitetin elmmetrik göstəricilərinin yüksəldilməsi üzrə kompleks tədbirləri əhatə edir.

**1.6.** Strateqiya hazırlanarkən aşağıdakı sənədlərə istinad edilmişdir: Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/18343); Elm haqqında Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/33488); Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası (https://president.az/az/articles/view/9779); BSU-nun 2024-2030-cu illər üzrə BSU-nun Strateji inkişaf planı və s.

**1.7.** Strategiya BDU-nun Elmi Şurası tərəfindən müzakirə edilərək qəbul olunur və Elm və innovasiyalar üzrə prorektor tərəfindən təsdiq olunur.

**1.8.** BSU-da elmi tədqiqatlar kafedralarda və BSU-nun strukturuna daxil olan elmi-tədqiqat laboratoriyalarında aparılır.

## 2. Elmi-tədqiqat sahəsində BSU-nun missiyası və gələcəyə baxışı

**2.1.** Elmi-tədqiqat sahəsində **BSU-nun missiyası** təhsilin və elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaqla əmək bazarı üçün yüksək kompetensiyalı kadrların hazırlanmasıdır.

**2.2.** Elmi-tədqiqat sahəsində **BSU-nun gələcəyə baxışı** yaxın gələcəkdə elmi tədqiqatların əhatə dairəsinin və keyfiyyətinin daha da artırılması ilə ölkəmizin universitetləri arasında BSU-nun rəqabət qabiliyyətliliyinin artırılmasıdır.

## 3. Strategiyanın həyata keçirilməsi mexanizmləri və qiymətləndirmə meyarları

**3.1.** Elmi tədqiqat və inkişaf BSU-nun bütün professor-müəllim heyətinin, elmi işçilərin, magistrantların, doktorantların və əksər bakalavriat təhsil alanların işinin əsas hissəsinə çevrilməsi.

**3.2.** Elmin idarə edilməsi, elmi tədqiqatların təşkili, əlaqələndirilməsi və maliyyələşdirilməsi proseslərinin təkmilləşdirilməsi məqsədilə zəruri islahatların aparılması.

**3.3.** BSU əməkdaşlarının və struktur bölmələrinin elmi-tədqiqat fəaliyyətləri üzrə məlumatın qiymətləndirmə və idarə edilməsi mexanizmlərin təkmilləşdirilməsi.

**3.4.** Universitetin yüksək elmi göstəricilərə malik struktur bölmələrinin və əməkdaşlarının dəstəklənməsi (elmi layihələrin və gənc alimlərin maddi həvəsləndirmə mexanizminin işlənib hazırlanması).

**3.5.** Beynəlxalq elmi və təhsil layihələri üzrə reytinq və müsabiqə prosedurlarında iştirak, beynəlxalq elmi-praktik tədbirlərin təşkili.

**3.6.** Elmi-tədqiqat laboratoriyaların inkişafı, insan reüsursları və maddi-texniki bazasının möhkəmləndirilməsi.

**3.7.** Təhsil proqramlarının keyfiyyətinin təmin olunması məqsədi ilə təhsil, tədris və elmi-tədqiqatın qarşılıqlı əlaqəsinin təmin edilməsi.

**3.8.** BSU əməkdaşların və tədqiqatçıların elmi-tədqiqat fəaliyyətində obyektivliyə və şəffaflığa dəstək verilməsi, bütün səviyyələrdə tətbiqə istiqamətlilik prinsipinə riayət edilməsi.

**3.9.** BSU elmi əsərlərin (məqalə, monoqrafiya, dissertasiya və s.) yoxlanılması üçün xüsusi lisenziyalı proqramlarından istifadə edilməsi.

**3.10.** İnnovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, sahibkarlıq inkubatorların yaradılması, elm sahəsində sahibkarlıq fəaliyyəti üçün şəraitin yaradılması.

**3.11.** Elmin populyarlaşdırılması və elmi nailiyyətlərin təbliği.

## 4. Strategiyanın əsas hədəfləri

### 4.1. Hədəf 1: Elmi-tədqiqat potensialın inkişafı və davamlı tədqiqat mühitinin gücləndirməsi.

4.1.1. BSU-da aparılan elmi-tədqiqat işlərinin müasir cəmiyyətin və milli iqtisadiyyatın müxtəlif sahələrinin tələblərinə uyğun formalaşdırılması, təsdiqi və yerinə yetirilməsi.

4.1.2. Ali təhsilin bütün səviyyələrində təhsilverənlərin və təhsilalanların elmi-tədqiqat prosesinə fəal cəlb edilməsi, elmin tədris prosesinə inteqrasiyasının təmin edilməsi.

4.1.3. BSU akademik heyətinin və tədqiqatçıların ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunmasını.

4.1.4. Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron sistemlərə çıxışları genişləndirmək və beynəlxalq indeksli jurnallarda professor-müəllim heyətinin elmi məqalələrin dərc olunmasının təşviq edilməsi.

4.1.5. Professor-müəllim heyətinin akademik elektron bazalarında şəxsi səhifələrinin yaradılması.

4.1.6. Müəlliflik hüquqlarının qorunması məqsədilə antiplagiat sistemin qurulmasını istifadəsi.

4.1.7. BSU-da respublika və beynəlxalq səviyyələrdə elmi tədbirlərin (konfranslar, simpoziumlar, forumlar, elmi seminarlar və s.) keçirilməsi.

4.1.8. Tələbə Elmi Cəmiyyətinin işinin optimallaşdırılması, gənc tədqiqatçıların BSU-nun elmi-tədqiqat fəaliyyətində iştirakının təmin edilməsi.

4.1.9. Elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə əmək haqqının differensiallaşdırma mexanizminin hazırlanması.

4.1.10. BSU kitabxana fondunun daimi yenilənməsi, kitabxana xidmətinin keyfiyyətini yüksəltmək məqsədilə fəaliyyətinin rəqəmsallaşdırma, beynəlxalq kitabxana birliklərinə daxil olunması.

4.1.11. Elmi-pedaqoji işçilərin, doktorantların və tələbələrin milli və beynəlxalq elmi-tədqiqat proqramlarında, müsabiqələrdə, qrantlar üzrə tədqiqatlarda iştirakının monitorinqi və intensivləşdirilməsi.

### 4.2. Hədəf 2 : Elmi-tədqiqat fəaliyyətinin beynəlmiləlləşməsi.

4.2.1. Elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlıqların genişləndirilməsi.

4.2.2. Magistrant və doktorantların elmi-tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə onların xarici partnyor universitetlərindədə tədqiqatların aparılmasının təmin edilməsi.

4.2.3. BDU-nun elmi və pedaqoji işçilərinin akademik mobilliyinin stimullaşdırılması (xarici elmi təcrübələr, xarici ölkələrin universitetlərində mühazirələr oxumaq və s.);

4.2.4. BSU-da keçirilən elmi tədbirlərə xarici ekspertlərin və təhsil müəssisələrindən nümayəndələrin geniş cəlb edilməsi.

4.2.5. BSU-nun elmi nəşri olan «Bakı Slavyan Universitetinin Elmi Əsərləri» jurnalının redaksiya heyyətinə xarici ekspertlərin və müəllif qismində xarici tədqiqatçıların cəlb edilməsi.

4.2.6. Beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, nüfuzlu xarici elmi mərkəzlərlə ortaq elmi tədqiqat proqramlarının işlənməsi, birgə tədqiqat laboratoriyalarının təşkil edilməsi, beynəlxalq elmi layihələrdə BSU alimlərinin iştirakının təmin edilməsi.

**4.3. Hədəf 3. Peşəkar elmi kadr hazırlığının həyata keçirilməsi.**

4.3.1. Ali təhsilin bütün səviyyələrində təhsilalanların tədqiqat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi.

4.3.2. Doktorluq və namizədlik dissertasiyaları üzərində çalışan universitet əməkdaşlarının elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi.

4.3.3. Bakalavriat və magistratura səviyyələrində tədqiqat yönümlü fənlərin tədrisinin təmin edilməsi.

4.3.4. Doktorant və magistrantların tədqiqat mövzularının əmək bazarının tələblərinə uyğun təsdiqlənməsini və onların müxtəlif müəssisələrdə tədqiqat aparılmasının təmin edilməsi.

4.3.5. Respublikanın ali məktəblərində və elmi-tədqiqat mərkəzlərində aktual elmi problemlər üzrə elmi təcrübə keçmək üçün şəraitin yaradılması

**4.4. Hədəf 4: Elmi tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyası.**

4.4.1. Elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi, biznes nümayəndələri, müəllimlər, gənc alimlər və təhsilalanlar üçün kommunikasiya platformalarının yaradılması.

4.4.2. Elmi-tədqiqat fəaliyyətinin tədris prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsi və tədrisə inteqrasiyasının təmin edilməsi (elmi-tədqiqat fəaliyyətinin nəticəsi kimi professor-müəllim heyəti tərəfindən tədris-metodiki vəsaitlərin hazırlanması vətədrisdə istifadə edilməsi).

4.4.3. Elmi məktəblərin qorunmasına və varisliyin təmin edilməsi, elmin müvafiq sahələri üzrə böyük alimlərin təcrübəsindən geniş istifadə edilməsi.

4.4.4. Tədrisin keyfiyyətinin artırılması məqsədilə elmi-tədqiqat nəticələrinin nəzərə alınaraq mövcud olmayan fənn proqramlarının hazırlamasını, mövcud olan fənn proqramlarının təkmilləşdirilərək yenidən çap edilməsini və mühazirə mətnlərinin daim təkmilləşdirilməsinin təmin edilməsi.

4.4.5. Elm və innovasiyalar sahəsində aparıcı alimlərin ustad mühazirələr oxuması və seminarlarda çıxışlar etməsi məqsədilə BSU-ya dəvət edilməsi, onların tələbə və müəllimlərlə sıx əlaqələrinin yaradılması.

**4.5. Hədəf 5: BSU-nun elmi nəşrlərinin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi.**

4.5.1. BSU-nun elmi nəşri olan “Bakı Slavyan Universitetinin Elmi Əsərləri» jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsinin təmin edilməsi.

4.5.2. Professor-müəllim heyətinin, təhsilalanların nəşr fəaliyyətinin göstəricilərinin yüksəldilməsi, ölkə daxilində və xaricdə nəşrlərin sayının artırılması.

4.5.3. “Bakı Slavyan Universitetinin Elmi Əsərləri» jurnalının məzmun və texniki strukturunun müasir yerli və beynəlxalq standartlara uyğunlaşdırılması.

4.5.4. BSU əməkdaşlarının və təhsilalanların elmi əsərlərinin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (Web of Science, Scopus, Google Scolar və s.) daxil olan dərgilərdə dərc edilməsi.

4.5.5. “Bakı Slavyan Universitetinin Elmi Əsərləri» jurnalının beynəlxalq standartlara uyğun internet səhifəsinin yaradılması.

4.5.6. “Bakı Slavyan Universitetinin Elmi Əsərləri» jurnalının redaksiya heyətinə 50% xarici tədqiqatçıların daxil edilməsinin təmin edilməsi.

4.5.7. BSU-da dərc olunan elmi nəşrlərin müvafiq rəqəmsal identifikatorların (DOI, E-İSSN və s.) olmasının təmin edilməsi.

4.5.8. BSU-da dərc olunan elmi nəşrlərin beynəlxalq indekslənmə və xülasələndirmə bazalarında qeydiyyatdan keçirilməsinin və izlənməsinin təmin edilməsi.

**İstifadə olunan mənbələr:**


1. Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://frameworks.eqanun.az/20/c_f_20842.html
2. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası - Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/25029
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://president.az/az/articles/view/9779
4. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu- 19 iyun 2009-cu il №833-IIIQ - https://e-qanun.az/framework/18343
5. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” - Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://eqanun.az/framework/29145
6. Azərbaycan Respublikasının “Elm haqqında“ Qanunu - 14 iyun 2016-cı il №271-VQ- https://e-qanun.az/framework/33488

7. “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/19800
8. “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://eqanun.az/framework/19534
9. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” – Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/4071
10. “Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi”nin və “Ümumi təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 266 nömrəli qərarı - https://e-qanun.az/framework/33259
11. Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESQ). 2015 - https://www.enqa.eu/wpcontent/uploads/2015/11/ESG_2015.pdf
12. Research Strategy of University of Bristol for 2017-2023 https://www.bristol.ac.uk/medialibrary/sites/university/documents/governance/RESEARCH%20STRATEGY%202017